

# Qazimiz “Vətəni qorumaq borcumuzdur” – deyir

***Ötən ilin noyabr ayında igid ərənlərimiz, qorxmadan, çəkinmədən, ölümün gözünə dik baxmağı bacaran oğullarımız sayəsində zəfər əldə edildi. Onların şücaətindən, keçdikləri döyüş yolundan, yuxusuz gecələrindən, 44 günlük ağır cəbhə həyatından nə qədər yazsaq, nə qədər danışsaq da, azdır. Bu yazımızda qələbənin qazanılmasında əməyi, rolu olan oğullarımızdan biri – gizir Əskər Hüseynov haqqında danışacağıq. O, Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin iyunun 24-də imzaladığı sərəncamla “Füzulinin azad olunmasına görə”, “Xocavəndin azad olunmasına görə” , “Cəbrayılın azad olunmasına görə” və “Cəsur döyüşçü” medallarına layiq görülüb.***

... Uşaqlıqdan Azərbaycan Ordusunun zabiti olmaq istəyən Əskər Hüseynov orta məktəbi Lerikdə bitirəndən sonra, ailəsinin maddi imkanı olmadığından hərbi məktəbə gedib sənəd verə bilmir. Həqiqi hərbi xidmətdə olanda düşünür ki, bəlkə burada cəhd edib hərbçi olmaq arzusuna çatar. Lakin müddət bitdikdən sonra onun xidmətinə ehtiyac olmadığı bildirilir.

Əskər həvəsdən düşmür və inadla hazırlaşır və 2016-cı ilin yanvar ayında Müdafiə Nazirliyinin gizir hazırlığı kursuna daxil olur. Kursu başa vurub təyinat üzrə “N” saylı hərbi hissədə xidmətə göndərilən ərəfədə Aprel döyüşləri başlayır. Əskərin xidmət etdiyi hərbi hissə də döyüşlərin getdiyi cəbhə bölgəsində dislokasiya olunur. Sanki özünü təsdiq etmək üçün şans yarandığını düşünən Əskər intizarla döyüşə girəcəyi saatları gözləyir. Lakin onun olduğu hərbi hissə ikinci eşalonda olduğu üçün döyüşə buraxılmırlar…

Ordumuzun tərkibində həmlə taboru yarananda, Əskər təkidlə həmin taborda qulluq etmək istəyini bildirir və xüsusi döyüş qabiliyyəti tələb edən sınaqlardan keçərək tabora qəbul edilir. Əmin olur ki, müharibə başlasa, buradan birbaşa ön cəbhə döyüşlərinə qatıla bilər. Nəhayət, həmlə taborunun qarşıya qoyduğu tələbləri uğurla yerinə yetirib onun üzvü olur. İki il orada xidmətdən sonra səhhəti ilə bağlı əvvəlki hərbi hissəyə qaytarılır.

... Sentyabrın 27-də Əskərgilin hərbi hissəsi Füzuli istiqamətində gedən çox ağır döyüşlərə qatılır. Neçə illər boyu xüsusi istehkamlar qurmuş Ermənistan ordusu ağır itkilər verməsinə baxmayaraq, ilk günlərdə geri çəkilmir. Lakin Azərbaycan silahlı qüvvələri komandanlığının dəqiq qurduğu hücum planları ilə əsgərlər bu ağır döyüşlərdən az itkilərlə çıxır və torpaqlarımızı düşməndən təmizləyirlər. Həmkəndlisi və yaxın qohumu Cavanşir şəhid olduqdan sonra içindəki intiqam hissi daha da alovlanır, hərbi hissənin yerləşdiyi cəbhə xəttinə qayıdıb xidmətinə davam edir. Bir gün sonra komandirin icazəsi ilə iriçaplı “Bora – 12” snayper tüfəngini də götürüb müşahidəyə çıxır. Hədəfdə görünən düşmənlərə açdığı atəşin biri də boşa getmir… Məhz Cavanşirin həlakından sonra Əskər çox ağır döyüşlərdə iştirak edir, ən təhlükəli mövqelərə atılmaqdan belə çəkinmir və bütün qəzəbini hədəfə aldığı hər düşməni məhv etməklə soyudur.

Onun ən ağır döyüşü Hadrutdan Xankəndi istiqamətinə gedəndə baş verir. Maşınlara oturub Xankəndi tərəfə yollananda tabor komandiri rabitə vasitələrini götürmək üçün ona qrupu ilə birlikdə geri dönməyi tapşırır. Qrup üzvləri tapşırığı yerinə yetirib geri qayıtmaq üçün 1saylı minaatanlar batareyasının maşınlarına minirlər. Rayonun son kəndlərindən birinin qurtaracağındakı yoxuşu adlayıb, körpüyə çatırlar. Sübh çağında bir neçə yüz metr getdikdən sonra düşmən onları hər iki tərəfdən aramsız atəşə tutur. Snayperi götürən Əskər göz qırpımında maşından yerə atılıb vəziyyəti aydınlaşdırmaq istəyir. Maşınların dördünə sürətlə irəli – Val deyilən, atəş tutmayan əraziyə sürməyə işarə edir. Maşınlardan biri keçə bilmir və yolun ortasında dayanır. Ondan sonra gələn sursat maşını da atəş altına düşməsin deyə dərhal sürücüyə yaxınlıqdakı meşəyə sürməyi əmr edir. Yolun ortasında tək uzanan Əskəri hava hələ yaxşı işıqlanmadığından, görmürlər. Çevik hərəkətlərlə yolun kənarındakı kolluğa, oradan da meşəyə tərəf sürünür. Qulağına gələn səslərin bizə, ya erməniyə aid olduğunu seçə bilmir. Sonra aydınlaşdırır ki, doğma dildə danışırlar. Hərbi hissənin parolunu deyə-deyə onlara yaxınlaşır. 2-ci minaatan batareyanın üzvlərindən 18 nəfər döyüşçü toplaşıb vəziyyətdən çıxış yolu axtarırlar. Onlar demək olar ki, mühasirədə idilər. Əskər döyüşçüləri düşmənin ağlına gəlməyən çayiçi kolluq yollarla körpünün altından bir-bir keçirib itkisiz mühasirədən çıxarır.

Amma təhlükə bununla bitmir. Snayperlə müşahidə aparıb düşmənin mövqelərini öyrənir və iz buraxan güllə ilə hara atəş açmağı onlara nişan verir. Bu yolla düşmənin bütün diqqətini özlərinə cəlb edir. Qrupun döyüşçülərini elə yerləşdirir ki, sanki ermənilərlə bir tabor döyüşür. Əskər mühasirədə olanlara tapşırıq verir ki, maşınları tək-tək, sürətlə geri sürüb olduqları yerdən uzaqlaşsınlar. Beləcə, 34 nəfər şəxsi heyət (18 nəfərlə bir yerdə 52 döyüşçü) mühasirədən xilas edilir.

Gizir Əskər qrup komandiri kimi yeni tapşırıq alır… Daha iki qrupla Xankəndi istiqamətindəki Qırmızı Bazar strateji məntəqəsinin ətrafındakı müəyyən yüksəkliklər tez bir zamanda ələ keçirilməli idi. Əskərgil faktiki olaraq düşmənin arxasına keçmək üçün iki gün yol qət edirlər. Üçüncü gün səhər tapşırılan yüksəkliklərin ətəklərində tapşırığı bir də tam dəqiqləşdirib qruplara bölünürlər. Bu dəfə qrupda Məmmədzadə İman və Bəhrəm qardaşlarından (sonradan hər iki qardaş şəhid olub) başqa daha 11 döyüşçü vardı. Əlavə olaraq idarə heyətindən tabor komandirinin birinci müavini, əslən Lerik rayonunun Xəlifəkücə kəndindən olan kapitan Cəlil Cavadov da onlarla idi. Kapitan Cavadov şəxsən özü qrupa rəhbərlik edir. Qrup qəfil pusquya düşür. Həmin gün cəbhə həyatının ən ağır, amansız döyüşü başlayır. Özlərindən 4 dəfə çox, 14 nəfər 50 – 60 erməni əsgərinə qarşı döyüşür… Sonunda döyüş meydanında 11 şəhid, Əskər və daha iki yaralı qalır...

... Əskər əvvəl dabanından yaralanır. Bir saat keçməmiş gizir bu dəfə sol ayağından, dizdən aşağı dörd güllə yarası alır. Onlardan ikisi ətini siyirib keçir. Ayağını bağlamağa “jgut” qalmadığı üçün əsgər plaşını yığıb kürəyindən asdığı ipi açır və onunla dizdən yuxarı hissəni bərk-bərk sıxır. Elə bu məqamda sol tərəfindən sanki qolunu balta ilə çapırlar... Keyimiş, hərəkətsiz vəziyyətdə qalır. Sol qolunun olduğunu hiss edir, amma onu tərpədə bilmir. Onun qolunun bazi sümüyü çilik-çilik olur, əzələ parçalanır. Qalan bircə nazik sümük və vətərlər olur...

... Əskər özünü toplayıb dostu Elton Ağayevə zəng vurub koordinatlarını bildirir. Deyir ki, əgər şəhid olsa, onun meyitini buradan götürə bilsələr, anasının məzarının yanında dəfn etsinlər...

... Axşama doğru ermənilərin danışıqlarını aydın eşitməyə başlayanda başa düşür ki, yaxınlaşırlar. Üstündəki tapançanı hazır saxlayır. Qumbaranı sağ əlinə götürüb, baş barmağını həlqəsinə keçirir. Bütün pal-paltarı qan içində olur. Əsir düşməyi ağlına gətirmir. Düşünür ki, bu vəziyyətdə onlara da lazım deyil və işgəncə ilə öldürəcəklər. Qaniçənlər yaxınlaşıb şəhidləri və Əskəri bir neçə dəfə təpikləyirlər ki, öldüklərinə əmin olsunlar. Sonra silahları yığışdırıb öz səngərlərinə tərəf yollanırlar.

Ermənilər gedəndən sonra o, özünü toplayıb birtəhər ayağa qalxır. Əl qumbarasını sağ cibinə qoyub, hazır vəziyyətə gətirdiyi tapançanı sağ əlində tutur. Sallanmış vəziyyətdə olan sol əlini sağ əlində tutduğu tapançanın üst tərəfinə qoya bilir. Bir addım atmamış başı gicəllənir və büdrəyib yerə yıxılır. Yenidən ayağa qalxır və çox çətinliklə Azərbaycan Ordusunun yerləşdiyi mövqelərə doğru irəliləməyə başlayır. 5-6 kilometr yol qət edərək özünü birliyə çatdıra bilir. Ağır yaralı olan Əskər əvvəl Hadrutda, sonra Füzulidəki hospitala yerləşdirilir...

Yaralandığını kəndin qəhrəman şəhidi Cavanşirin əmisi, hərbi həkim, travmatoloq-cərrah polkovnik-leytenant Əbülfət Həmidova telefonla məlumat verir. Qolunun amputasiya ediləcəyindən narahat idi... Elə həmin gün onu həkimin çalışdığı Agcabədidəki hərbi hospitala çatdırırlar. Əbülfət həkim 8 saata yaxın sol qolun amputasiya olunmaması üçün əməliyyat aparır...

Qazimiz Əskər Hüseynovun döyüş yolu heyrət doğurur. Hələ reabilitasiya keçən qazimizin arzusu tezliklə tam sağalıb hərbi hissəyə qayıtmaq, Vətənə xidmətini davam etdirməkdir. Həm də müzəffər ordumuzun azad etdiyi Qarabağda...

*Zərifə BƏŞİRQIZI, “Xalq qəzeti”*